# İŞIQLI ÖMÜR YOLU

## Əli Rza Xələflinin «Dönməzlik yolu» kitabı haqqında publisistik qeydlər



*Hüseyn İSAOĞLU*

*yazıçı-publisist*

Xarakterlər tədqiq mövzusu olanda, şəxsiyyətin əsas sifəti bəlli olur. Yəni, tarixcə də, zamanca da şəxsiyyəti cəmiyyətin aparıcı qüvvəsinə çevirən xarakterdir... Biz bu yüksək, ali dərəcəyə məxsus çox sayda fenomen tanıyırıq. Atatürk, Məmmədəmin, Mir Cəfər Bağırov, nəhayət, dünya şöhrətli siyasətçi, Azərbaycanın əbədi parlaq günəşi Heydər Əliyevin misilsiz xarakteri sayəsində dövlətimiz dünyada öz məqamına qovuşa bilib.

İstedadlı publisist, dəyərli ədəbi sima Əli Rza Xələflinin 2022-ci ildə filologiya elmləri doktoru, yazıçı Elçin Mehrəliyevin redaktorluğu ilə «Gənclik» nəşriyyatı tərəfindən buraxılmış «Dönməzlik yolu» kitabının baş obrazı Yaqub Məmmədov da əsl xarakter, əsl şəxsiyyətdir. Annotasiyadan da göründüyü kimi, Əli Rza Xələfli adıçəkilən kitabı Yaqub müəllimin 80 illik yubileyinə həsr edib, kitabda cümhuriyyət dövrünün hadisələri, tarixə nüfuz, 20-ci əsrin sonlarında ölkədə yaşanan paradoksal vəziyyətlərə ədəbi baxış və s. oxucu diqqəti çəkən məqamlardır.

Kitabda əsas səmt publisistik və poetik duyğudur. Müəllif bu ədəbi hissləri kitab boyu vacib arqument kimi önə çəkib, oxucuya bir şəxsiyyət ömrü aşılayıb. Heç şübhəsiz, Əli Rza Xələfli aydın düşüncə sahibidir. Onun ədəbi qənaəti bizə zaman boşluğunda müdhiş təfərrüatlar axtarmaq mənası verir. Belə deyək, onun Yaqub Məmmədov haqda ifadə etdikləri bizə burulğanlara düşən, oradan mərd-mərdanə çıxan gerçəkləri anladır. Kitabdakı zəruri fakt ədəbi hissin incə duyğuları ilə qarışıb, balanslaşmış orbitlərdə fərqli atmosfer tapmaq üçün reallığa söykənib və leqal əhatəli fikirlər kəsb edir. Bu da bir qələm adamı üçün münasib tərzdir.

Səmimi etiraf edək ki, kitabdakı «Dönməzlik yolu», «Amalın və əməlin birliyində», «Azadlıq və istiqlal mübarizələri», «Siyasi gündəlikdən səhifələr», «Od içindən keçən yol» və s. kimi tutarlı, sanballı qələm nümunələrində ən başlıca komponent gerçəyə tapınmaqdır. Müəllif öz müşahidə qabiliyyəti ilə oxucuda xoş ovqat yaradır, onun könül dünyasına isti sığallar çəkir. Bir sözlə, Əli Rza Xələflinin adıçəkilən kitabında publisistik-şair baxışı fikir xəritəsi kimi diqqət çəkir.

Bu «xəritə»də epik an duyğusal tərənnümlə başlayır, pünhan məcralarda təlatümə uğrayır, sonra da (müəllif) bir anın içində az zamanda daşlaşan gerçəklərə güzgü tutur. Maraqlıdır ki, müəllif tarixlə şəxsiyyət amilini oxucuya ictimai-ədəbi səciyyə fonunda təlqin edib. Obrazlar əsas ədəbi zərurət kimi poetik-ictimai və bir az da irfani ovqata köklənib.

Xoş haldır ki, Əli Rza Xələfli kitabda ictimai-tarixi və bir az da duyğusallıq kəsb edən təfərrüatlara geniş yer verib. Zənnimizcə, bunu bəlkə də düşüncələrini oxucu zövqünə uyğun qurmaq üçün edib. Ən azından, buna görə kitabdakı duru təfsilat oxucunu bütünlükdə duyğusal səmtə aparır.

Kitabda səliqəli və ütülü fikirlər çoxdur. Oxucunu müasir aləmdə tarixi an, xaos və mühit tərpənişləri ilə tanış etmək müəllifi həm də həyat qaydaları ilə uzlaşmada israrlı edib. Nəticə etibarilə o, mənəvi sınmalara zəmin yaradan fiziki görkəmləri labüd mütləqə yönəltmək və işıqlı aləmə uzanan qapılara əl toxundurmaq niyyətini gizlətməyib. Bu da bir qələm adamı üçün çox lazımlı haldır.







...Gədəbəy dağları... Alnabat kəndi,
Ana qucağıdır burda beşiyin.
Bu dünya üzündə nə var, keçəndir,
Əbədi qalandı sənin keşiyin.

Xeyirin, ya şərin önündə duran,
Özü yaxşı bilir kimə həyandır.
Sənə məhrəm olan, halını soran
Kim olsa, sözümdə xalqa həyandır...

Burada bəllidir ki, müəllif Yaqub Məmmədovun soy kök mahiyyətini tədqiq edib, xalqa həyan olanların əbədiyyən xatırlanacağı zərurəti yaradıb.

Biz yaxşı bilirik ki, əgər qələm sahibi duyğusal mühitə müxtəlif çalar qatırsa, poetik mahiyyətə geniş hədd vermiş olur. Bu mənada, Əli Rza Xələflinin yaradıcılığı, elə sevə-sevə oxuduğumuz «Dönməzlik yolu» kitabı bizi tam qane edir. Bu kitabda Baş Obrazın milli ruhu, yaddaş çırpıntısı diqqətimizi təxminən 30-40 il əvvələ çəkir, o zamankı hadisələr gözlərimizin önündə kino lenti kimi canlanır.

Belə demək mümkünsə, «Dönməzlik yolu» kitabında müəllifin publisistik-poetik məqsədi fövqəl tərbiyəli və intizamlı obrazlar yaratmaqdır. Yaxud apardığımız təhlillər də sübut edir ki, bu kitab formal bir xəritədir; tarix, həyat, tale, (bir sözlə) vücudu əhatə edən hər şey orada özünü qabarıq göstərir. Burada görkəmli ictimai-siyasi xadim, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü (1989), Azərbaycan Ali Sovetinin sədri (1992), millət vəkili olmuş Yaqub Məmmədovun ömrünün əsas hissəsi təqdir olunub, hadisələr təmiz baxışlar prizmasından çözələnib. Kitabı oxuduqca, bir daha görürük ki, Yaqub Məmmədov 370-dən artıq elmi əsərin müəllifidir. Onlardan 205-i xaricdə çap olunub. Müəlliflik şəhadətnamələrinin və patentlərinin sayı 38-dir. Rəhbərliyi altında 24 elmlər namizədi və 8 elmlər doktoru elmi iş müdafiə etmişdir. Onun elmi-tədqiqat işləri əsasən praktik limfologiyanın fundamental problemlərindən birinə - limfa mayesinin laxtalanması və onların müxtəlif xəstəliklər zamanı korreksiyası məsələlərinə həsr olunmuş, aparılan elmi-tədqiqatlar nəticəsində, nəzəri və praktik təbabət üçün böyük əhəmiyyəti olan laxtalanma, əks-laxtalanma və fibrinoliz sistemlərinin humoral-nəqlolunmanın (qan, toxumaarası, maye, limfa) bütün şöbələrində funksiyada vəhdədliyi haqqında yeni elmi konsepsiya irəli sürülmüşdür. Ən vacibi, bu istiqamətdə 4 doktorluq və 20-dən çox namizədlik dissertasiyası müdafiə olunmuş və Azərbaycanda ilk dəfə bütöv bir "Limfoloqlar" məktəbi yaranmışdır və s. Bütün bu uğurlarına görə Yaqub Məmmədov Azərbaycan SSR-in əməkdar həkimi (1981), Azərbaycan SSR-in əməkdar elm xadimi fəxri adlarına (4 fevral 1991), "Qırmızı əmək bayrağı" (1982) və "Xalqlar Dostluğu" ordenlərinə (1987) layiq görülmüş, Vavilov adına mükafat (1990) və ABŞ Bioqrafiya Mərkəzinin medalı (2003) ilə təltif edilmişdir. Əlbəttə, kitabda Yaqub Məmmədovun həyat və ömür yolunun yalnız müəyyən bir hissəsi publisistik və poetik tədqiqə cəlb olunub, əslində, onun ömür tarixçəsi bir kitab həcminə sığmaz.

Kitabda diqqət çəkən məqamlardan biri də o dövrdəki ictimai asayiş, vətənpərvərlik aspektləridir. Müəllif Yaqub Məmmədovun timsalında o dövrdə baş verənləri sətiraltı mənalarla cilalayıb, oxucunu normal baxışlarla qane edib. Kitab boyu biz Baş Obrazın insan surətinin, vətəndaş əzminin qlobal resurs kimi xarakterizə edir, bu prioritetə uyğun onun dövlət etiqadını mühüm amil hesab edirik. Bu zərurətdə mənəvi dəyərlər, insan amili, sosial rifah və yüksəlişə zəmin yaradan dinamik gerçəklik də özünü nəzəri olaraq müəyyən edir.

Müəllif kitabda insan amili kodeksini ayrıca hiss kimi qabardıb, haralı olmasından asılı olmayaraq, hər kəsin Vətən, dövlət və xalq naminə yaşamasını əsas göstərib:

-

-

-

,

-

Bu sətiraltı, son dərəcə eyhamlı fikirlərdən bəlli olur ki, xaos dövründə Yaqub Məmmədov Azərbaycan dövləti üçün çox şey etdi və o, cəmiyyət və dövlət işindəki fərqli cəhətləri ilə seçilən, bacarığına, ictimai-siyasi fəallığına şahid olduğumuz, hətta gələcək müvəffəqiyyətlərinə də güvəndiyimiz istedadlı həkim, dövlət xadimi, dəyərli Vətən oğludur. O, yeniyetmə yaşlarından ictimai işlərdə fərqlənmiş, cəmiyyəti düşündürən məsələləri özünün vətəndaşlıq missiyası hesab etmişdir. O, özünü təkcə sosial aləmdə deyil, dövlət işində də bitkin nəzərlərlə təsdiqləmiş, bu əhatədə qərar tutanlara dövlətçilik sevgisi aşılamışdır. Bir sözlə, o, dövlətimizin inkişafında payı olan nüfuzlu insanlardan biridir.

«Dönməzlik yolu» kitabından da görünür ki, Yaqub Məmmədovun təmənnasız insan obrazı artıq hər kəsin qəlbində doğma surət qazanıb. Xeyirxahlığını görmüş, zəhmətini dadmış insanlar onun işıqlı çöhrəsinə salavat çevirir. Necə ki, müəllif özü də bu real hissi poeziyanın dili ilə belə vəsf edir:

Kürsüdən danışan Yaqub müəllim
Millətin gözünə dik baxıb deyir:
- Yalan da, riya da qənimdir, qənim,
Qayıdan, daş kimi Vətənə dəyir.

-

Əlbəttə, insanın bu dünyadakı vəzifəsi, məsuliyyəti, həyata baxışı onun taleyidir. Hamı bu tərzdə ömür sürür. Yəni hamını ömür yoluna məhz bu kimi zəminlər çıxarır... Yaxşı insan daim bu formada qalır. Çünki yaxşılıq onun qanında, genində olur. Yaxşı insanların çöhrəsi daim işıqlıdır. Onlar başqalarına da yol göstərir, köməkliklərini əsirgəmirlər.

Nə xoş ki, Əli Rza Xələflinin «Dönməzlik yolu» kitabının baş obrazı görkəmli ictimai-siyasi xadim Ya-